„Fides" 1/8

**Azərbaycan Respublikasının**
**Vəkillər Kollegiyasının sədri**
**cənab Anar Bağırova**
Bakı şəhəri, Ceyhun Hacıbəyli
küçəsi 100, AZ1007

Abşeron rayonu, Saray qəsəbəsində
qeydiyyatda olan Məhərrəmov
Cənnət Elşən oğlu tərəfindən

# T Ə Ş Ə K K Ü R

**Hörmətli, cənab sədr!**

Məlumat üçün diqqətinizə çatdırmaq istəyirəm ki, Bakı Ağır Cinayətlər Məhkəməsində 1(101)-1893/2024 nömrəli iş üzrə təqsirləndirilən şəxsəm. Hələ istintaq dövründə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Baş İstintaq və Təhqiqat İdarəsinin Ağır cinayətlərin istintaqı şöbəsinin xüsusilə mühüm işlər üzrə müstəntiqi polis-polkovnik leytenantı Osman Məmmədov bu iş üzrə mənə qarşı tamamilə qərəzli davranaraq, mən tərəfdən təqdim olunmuş sübutları qəsdən və bilərəkdən nəzərə almamış, onları iş materialına əlavə etməmiş, ittiham aktı ilə məni qanunsuz olaraq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 178.3.2-ci maddəsi ilə külli miqdarda dələduzluq cinayəti ilə ittiham etmişdir.

Bakı Ağır Cinayətlər Məhkəməsinin qərarı ilə mənə dövlət büdcəsinin vəsaiti hesabına vəkil təyin olundu və həmin qərar üzrə **"Fides" Vəkil Bürosundan vəkil Tağıyeva Samirə Novruz qızı** məhkəməyə gəldi. Mən Bakı Ağır Cinayətlər Məhkəməsində bu işimi daha yaxşı görməsi üçün həmin vəkilə pul müqabilində müqavilə bağlamağı təklif edəndə, Samirə xanım sırf bu iş üzrə əlavə müqaviləyə və orderə ehtiyac olmadığını, dövlət hesabına verilən orderin yetərli olduğunu deyərək işini layiqincə görəcəyini bildirdi. Sözün düzü məni yola verəcəyini düşünsəm də, sonra Samirə xanımın həqiqətən necə məsuliyyətlə bu iş üzrə artıqlaması ilə vaxt sərf edərək işlədiyini gördüm. Vəkil mənim işimə tam masuliyyətlə yanaşaraq, iş materialları ilə hərtərəfli tanış oldu, mənim adımdan vəsatətlər yazaraq sübutlar (sənədlər, disklər və sair) ilə birlikdə məhkəməyə təqdim etdi, çıxışlarında Azərbaycan Respublikasının Qanunvericiliyinin konkret maddələrinə istinad etməklə, mənim müdafiəmi ən yüksək səviyyədə həyata keçirdi. Nəticədə heç gözləmədiyim anda 16 oktyabr 2024-cü il tarixində Bakı Ağır Cinayətlər Məhkəməsində sədrlik edən cənab Vüqar Quliyev, hakimlər xanım Aytən Əliyeva və cənab Siyavuş Hacıyev tərəfindən bəraət hökmü çıxarıldı. Buna görə də **mən dövlət büdcəsinin vəsaiti hesabına mənə vəkil təyin olunan Samirə Tağıyevaya çox təşəkkür edirəm**. Samirə xanım kimi məsuliyyətli, savadlı, peşəkar vəkillərin sayının artması diləyilə.

Hörmətlə, Cənnət Məhərrəmov.

Tarix: 17 oktyabr 2024-cü il İmza: ____________________

Vəkillər Kollegiyasının
Rəyasət Heyəti
Daxil olma № 4068
« 25 » 10 2024 il